*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 81-86* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.81*

# GÖRKƏMLİ ƏDƏBİYYATŞÜNAS ALİM ZAMAN ƏSGƏRLİ

**Afaq Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: afaq23@mail.ru

**Annotasiya.** Təqdim olunan məqalədə ədəbiyyatşünas-alim, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor Zaman Əsgərlinin (1952-2018) həyat və çoxsahəli yaradıcılığının əsas məqamlarından bəhs olunur. Professor Z.Əsgərli 1980-ci ildə "Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi və Azərbaycan ədəbi-ictimai fikrində onun mövqeyi" mövzusunda namizədlik, 1992-ci ildə isə "Azərbaycan faciəsinin poetikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.
Z.Əsgərli "Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi" (1985), "Nəcəf bəy Vəzirov" (1998), "Əziz Mirəhmədov: alim ömrü" (2000), "Трагедия "Горе Фахреддина" (2003), "Seyid Əzim Şirvani" (2005), "Mirzə Şəfi Vazeh" (2010), "Bakıxanov-Qüdsi" (2015), "Mirzə Fətəli Axundzadə" (2017) kimi monoqrafiyaların, "Poetika: izahlı lüğət"in, dərslik və metodiki vəsaitlərin müəllifidir. O, XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı tarixi, nəzəriyyəsi məsələləri və poetika problemlərinə dair 400-ə qədər məqalələrin müəllifidir.
**Açar sözlər:** ədəbiyyatşünas, Zaman Əsgərli, elmi yaradıcılıq, dərs vəsaitləri

**Məqalə tarixçəsi:** göndərilib – 02.06.2023; qəbul edilib – 15.06.2023

# OUTSTANDING LITERARY CRITIC-SCIENTIST ZAMAN ASGERLI

**Afag Aliyeva**
Doctor of Philosophy in Philology
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Azerbaijan.
E-mail: afaq23@mail.ru

**Abstract.** The presented article tells about the main moments of the life and multifaceted work of literary scholar, critic, publicist, member of the Azerbaijan Writers Union, Doctor of Philology, Professor Zaman Asgerli (1952-2018). In 1980, Professor Z.Asgerli defended his candidacy on the topic "The tragedy of Najaf bey Vezirov "The Grief of Fakhreddin" and its position in Azerbaijani literary and social thought" and in 1992 defended his doctoral dissertation on the topic "Poetics of the Azerbaijani tragedy".
Z.Asgerli is the author of such monographs as "The Tragedy of Najaf bey Vezirov "The Grief of Fakhreddin" (1985), "Najaf bey Vezirov" (1998), "Aziz Mirahmedov: The Life of a Scientist" (2000), "The tragedy of "Fakhreddin's grief" (2003) , "Seyid Azim Shirvani" (2005), "Mirza Shafi Vazeh" (2010), "Bakikhanov-Gudsi" (2015), "Mirza Fatali Akhundzade" (2017), as well as "Poetics: an explanatory dictionary", numerous textbooks and methodological benefits. He wrote up to 400 articles on the history, theory and poetics of Azerbaijani literature of the 19th-20th centuries. The life and scientific work of Z.Asgerli, who occupies a unique place in Azerbaijani literary criticism, is covered to the extent that it can fit into the framework of the article.
**Keywords:** literary critic, Zaman Asgerli, scientific creativity, teaching aids

**Article history:** received – 02.06.2023; accepted − 15.06.2023

## Giriş / *Introduction*

Görkəmli ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Zaman Şükür oğlu Əsgərli 1 yanvar 1952-ci ildə Salyan rayonunun Kərimbəyli kəndində anadan olmuşdur (Z.Əsgərlinin AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun arxivində qorunan "Şəxsi işi"ndəki sənədlər arasında özü tərəfindən təqdim edilən "Kadrların şəxsi uçot vərəqəsi" və "Tərcümeyi-halı"nda bu tarix 17 yanvar 1952-ci il, "Anket"də isə 17 yanvar 1953-cü il kimi göstərilmişdir). O, 1959-1969-cu illərdə Kərimbəyli kənd orta məktəbində təhsilini tamamladıqdan sonra 1 il Salyan rayonunun Mexaniki Suvarma İdarəsində maşinist işləmişdir. 1970-1974-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) filologiya fakültəsinin tələbəsi olan Z.Əsgərli Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə ali təhsilini fərqlənmə diplomu ilə bitirmişdir. 1974-cü ildə təyinatı üzrə Qaraçala qəsəbə orta məktəbində əmək fəaliyyətinə başlayan Z.Əsgərli elə həmin ildə Salyan rayon Hərbi Komissarlığının çağırışına əsasən ordu sıralarına getmiş və 1 il hərbi xidmətdə olmuşdur.

Hələ orta məktəbdə oxuyarkən – 1967-ci ildə "Qələbə" və "Azərbaycan pioneri" qəzetlərində kiçik yazıları ilə mətbuat aləminə qədəm qoyan Z.Əsgərli artıq 1968-ci ildə şair Fikrət Sadığın "Dəniz küçəmizə gəlir" kitabı haqqında "Səmimi sətirlər" adlı ilk məqaləsini "İşıq" qəzetində çap etdirmişdir. Sonralar fəaliyyətini, əsasən, "Gənc müəllim", "Qələbə", "İşıq", "Azərbaycan müəllimi" qəzetlərində davam etdirmiş, H.Nadirin "Keçim-keçməyim?" (1969), Ə.Qasımovun "Qızburunda tək məzar" (1970), A.Babayevin "Bir parça həyat" (1971), İ.İbadovun "Qağayı" (1977) əsərləri və s. haqqında resenziya və oçerklər yazmışdır.

## Əsas hissə / *Main Part*

Zaman Əsgərli 1976-cı ildə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunda (indiki AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu) "SSRİ xalqları ədəbiyyatı ixtisası" üzrə aspiranturanın əyani şöbəsinə qəbul olunduğu üçün Qaraçala qəsəbə orta məktəbində tutduğu vəzifəsindən azad olunmuşdur. Bununla da Z.Əsgərlinin gələcək fəaliyyət istiqaməti, tədqiqat sahəsi müəyyənləşmişdir. Belə ki, 1979-cu ildə Nizami adına Ədəbiyyat İnstitutunun XIX əsr Azərbaycan ədəbiyyatı şöbəsində sınaq müddəti ilə kiçik elmi işçi vəzifəsinə təyin olunmuş, 1980-ci ildə EA-nın müxbir üzvü, görkəmli alim Əziz Mirəhmədovun elmi rəhbərliyi ilə "Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi və Azərbaycan ədəbi-ictimai fikrində onun mövqeyi" mövzusunda dissertasiya işi müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1980-ci ildə kiçik elmi işçi vəzifəsinə təsdiq edilən Z.Əsgərli sonralar böyük elmi işçi (1985), aparıcı elmi işçi (1992), baş elmi işçi (2002) kimi mərhələlərə yüksəlmişdir. Daim öz üzərində çalışan, hər zaman axtarışda olan alim 1992-ci ildə "Azərbaycan faciəsinin poetikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Tədqiqatlarda bu əsər Azərbaycan ədəbiyyatşünaslığı tarixində "poetika" adlı ilk doktorluq dissertasiyası kimi qəbul olunur. Həmçinin M.C.Cəfərovun H.Cavid, M.Arifin C.Cabbarlı, Y.Qarayevin həm H.Cavid, həm də C.Cabbarlı faciələri haqqında yazdıqları fundamental əsərlərdən sonra Z.Əsgərlinin də öz tədqiqatı ilə adını bu sanballı tədqiqatçıların sırasına yazdığı qeyd edilir: "Zaman Əsgərli bacardı, bu işdə onun ən yaxın köməkçisi "poetika" anlayışı oldu və bu anlayışdan doğan yanaşma üsulları həmin faciələr barəsində yeni söz deməyə imkan yaratdı" [2].

Ədəbiyyat İnstitutunun XIX əsr Azərbaycan ədəbiyyatı, Ədəbiyyat nəzəriyyəsi və Yeni dövr Azərbaycan ədəbiyyatı kimi şöbələrində müxtəlif illərdə, müxtəlif vəzifələrdə çalışan Z.Əsgərli 1993-cü ildə XIX əsr Azərbaycan ədəbiyyatı qrupuna rəhbər təsdiq edilmişdir. Elə həmin ildə Nizami adına Ədəbiyyat İnstitutunun əmrinə əsasən köçürmə yolu ilə Azərbaycan Respubli-

kası Prezidenti yanında Ali Attestasiya Komissiyasının humanitar və ictimai elmlər şöbəsinin müdiri təyin edilən Z.Əsgərli cəmi bir ay işlədikdən sonra öz xahişi ilə işdən azad olunmuş və elmi fəaliyyətini ömrünün sonuna qədər Ədəbiyyat İnstitutunda davam etdirmişdir. 2009-cu ildə isə əməkdaşı olduğu Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri vəzifəsinə təsdiq olunmuşdur. Z.Əsgərli AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının və İxtisaslaşdırılmış Dissertasiya Şurasının üzvü kimi fəaliyyət göstərmişdir. Həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının "Ədəbiyyatşünaslıq" bölməsinin üzvlərindən biri olmuşdur. O, fəaliyyəti dövründə 30-a yaxın dissertasiya işinə elmi məsləhətçi, elmi rəhbər və rəsmi opponent təyin edilmişdir.

Z.Əsgərli Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafındakı xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar 2012-ci ildə AMEA-nın Fəxri Fərmanı ilə təltif olunmuşdur. 2015-ci ildə isə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən professor elmi adına layiq görülmüşdür.

Zaman Əsgərli F.Köçərli, Ə.Abid, S.Mümtaz, Ə.Sultanlı, H.Araslı, F.Qasımzadə, M.Rəfili, M.Arif, M.C.Cəfərov, Ə.Mirəhmədov, K.Talıbzadə kimi görkəmli ustadların yaratdıqları milli ədəbiyyatşünaslıq məktəbinin layiqli davamçılarından biri, müasirləri arasında öz dəstxətti ilə seçilən və sevilən alimlərdən idi. Onun elmi rəhbəri AMEA-nın müxbir üzvü Ə.Mirəhmədova qədirşünaslıqla aid etdiyi: "Elmdə əsas keyfiyyətləri prinsipiallıq və tələbkarlıq, fikir-məzmun dərinliyi, vətəndaşlıq yanğısı, istedada, yaradıcılıq axtarışlarına qayğıkeş münasibət, elmi saxtalığa qarşı ciddi narahatçılıq və sərt mübarizlikdir" [5, s.3] kimi dəyərləri bütövlükdə bu cəfakeş alimin özünə də şamil etmək olar. Çünki bu sadalananlar ustad-tələbə şəxsiyyətlərindəki ortaq dəyərlərdir. Akademik Bəkir Nəbiyevin Z.Əsgərli haqqında verdiyi "Xasiyyətnamə"sində "Z.Əsgərli abırlı, namuslu bir ziyalı kimi kollektivdə hörmətə malikdir. Prinsipiallıq, obyektivlik, səmimiyyət onu səciyyələndirən xüsusiyyətlər" [9] də bu dəyərlər sırasına əlavə olunmalıdır.

Professor Q.Kazımov "Vəfasız dünya, vaxtsız ayrılıq" adlı məqaləsində vaxtilə tələbəsi olan Zaman müəllimin insani keyfiyyətlərindən danışarkən, haqlı olaraq onu belə xarakterizə etmişdir: "Zaman işdə, dövlət işində ciddi və məsuliyyətli olduğu kimi, adi həyatda da, insanlara münasibətdə də ciddidir, həm də geniş mənada böyük əxlaq sahibidir. Zamanda, onun əxlaqında ikilik, xüsusilə başqalarına yarınmaq (indi çoxlarında tüğyan edir) "qabiliyyəti" yoxdur" [8].

Alimin elmi, ədəbi tənqidi, publisistik yazıları dövrün müxtəlif mötəbər mətbuat orqanlarında "Zaman Əsgərli", "Z.Əsgərli", "Z.Şüküroğlu", "Z.Kərimbəyli" və s. imzalarla dərc olunmuşdur. O, "Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi" (1985), "Nəcəf bəy Vəzirov" (1998), "Əziz Mirəhmədov: Alim ömrü" (2000), "Трагедия "Горе Фахреддина" (2003), "Seyid Əzim Şirvani" (2005), "Mirzə Şəfi Vazeh" (2010), "Bakıxanov-Qüdsi" (2015), "Mirzə Fətəli Axundzadə" (2017) kimi sanballı monoqrafiyaların müəllifidir.

Z.Əsgərli "Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi" adlı ilk monoqrafiyasında bir əsər vasitəsilə də bütövlükdə faciə janrının xüsusiyyətlərini, onun bədii-ideya imkanlarını müəyyən etməyin mümkünlüyünü göstərmişdir. Əsər ikinci dəfə 2003-cü ildə "Трагедия "Горе Фахреддина" adı altında rus dilində nəşr olunmuşdur.

"Nəcəf bəy Vəzirov" əsərinin yazılma və nəşri tarixi haqqında Z.Əsgərlinin kitaba yazdığı "Ön söz"də verdiyi məlumatda qeyd olunur ki, N.Vəzirovun 125 illiyi münasibətilə ədəbiyyatşünas Kamran Məmmədov yazar haqqında kiçik elmi-kütləvi bir kiatbça hazırlamağı ona həvalə etmiş, təşəbbüs elmi rəhbəri Əziz Mirəhmədov və şöbə müdiri Nadir Məmmədov tərəfindən də bəyənilmişdir. Lakin ərsəyə gələn bu kitabın nəşri bəzi səbəblər üzündən mümkün olmamışdır. 1979-cu il aprel ayında tamamlanmış kitab, nəhayət, 19 ildən sonra – 1998-ci ildə jurnalist Vasif Quliyevin dəstəyi ilə nəşr olunmuşdur.

Z.Əsgərlinin 4 monoqrafiyasının yazılma və nəşri tarixinə nəzər saldıqda eyni taleyin şahidi oluruq. Bu haqda da müəllif "Seyid Əzim Şirvani" kitabının "Bir neçə söz"ündə yazır: "...keçən əsrin 70-ci illərinin sonlarından başlayaraq, AMEA Nizami adına Ədəbiyyat İnstitutunda

XIX əsr Azərbaycan şair və yazıçılarının yubileyləri keçirilərkən işlədiyim şöbənin və İnstitut rəhbərliyinin tapşırığı ilə həmin sənətkarlar haqqında elmi-kütləvi kitabçalar yazmalı olmuşam. Əvvəlcə, "Nəcəf bəy Vəzirov" (1979), sonra "Mirzə Şəfi Vazeh" (1982), daha sonra "Seyid Əzim Şirvani" (1985), nəhayət, "Mirzə Fətəli Axundzadə" (1987).

Amma böyük həvəslə yazdığım həmin kitabçalar... Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə nəşriyyata göndərilsə də, tezliklə üstümə qayıdıb. Belə "səbəb" göstəriblər ki, kitabça nəşriyyatın tematik planına daxil edilməyib" [4, s.3]. Z.Əsgərlinin S.Ə.Şirvaninin 150 illik yubileyi münasibətilə yazılmış bu kitabı 20 ildən sonra işıq üzü görmüşdür. Kitabda dünyagörüşü və yaradıcılığı klassik Şərq bədii-fəlsəfi fikrinin qabaqcıl ənənələri üzərində formalaşan S.Ə.Şirvaninin həyatı, onun ədəbiyyat təzkirəçiliyi, lirik və satirik sənətkarlığı, əxlaqi-tərbiyəvi hekayələri, təmsilləri, həmçinin pedaqoji, publisistik və tərcüməçilik fəaliyyəti tədqiqata cəlb edilmişdir.

"Dünyanın ədəbiyyat tarixində Azərbaycan şairi Mirzə Şəfi Vazehin keşməkeşli həyatına və sirli yaradıcılıq taleyinə bənzər ikinci bir ömür, poetik tale tapmaq çətindir", – [6] deyən Z.Əsgərlinin 1982-ci ildə nəşriyyatdan geri qaytarılan növbəti əsəri "Mirzə Şəfi Vazeh" yalnız 28 ildən sonra – 2010-cu ildə nəşr olunmuşdur. Monoqrafiyada vazehşünaslığın son nailiyyətləri ümumiləşdirilib tədqiqatçı süzgəcindən keçirilmiş, M.Ş.Vazehin həyatı və ədəbi-elmi irsi ilə bağlı mübahisəli məqamlara məntiq gücü ilə aydınlıq gətirilmişdir.

Nəşri 1987-ci ildə dayandırılan "Mirzə Fətəli Axundzadə" monoqrafiyasının nəşrinə isə müəllif 2017-ci ildə – 30 ildən sonra müvəffəq olmuşdur. Kitabda Azərbaycan dramaturgiyasının banisi, maarifçi, şair, böyük mütəfəkkir, ictimai xadim M.F.Axundzadənin fəlsəfi, ictimai-siyasi, sosial və etik görüşləri araşdırılmış, böyük tarixi xidmətlərinə nəzər salınmışdır.

Z.Əsgərlinin "Əziz Mirəhmədov: Alim ömrü" adlı kitabı tanınmış alim, böyük insan, ədəbiyyatımızın müdrik və vicdanlı tədqiqatçısı, "yeni tipli ədəbiyyatşünaslıq məktəbinin yaradıcısı" [7, s.75], AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, ədəbiyyatşünaslıq elmi tarixində müstəsna xidmətləri olan Ə.Mirəhmədov haqqında yazılmış ilk monoqrafik tədqiqatdır. Burada alimin ömür səhifələri vərəqlənmiş, çoxsahəli elmi-təşkilati fəaliyyətinin əsas istiqamətlərindən bəhs edilmişdir.

Alim "Bakıxanov-Qüdsi" adlı monoqrafiyasında Azərbaycanın ədəbi-mədəni, ictimai-siyasi, hərbi, diplomatik və elmi fikrinin görkəmli nümayəndəsi, şair, nasir A.Bakıxanovun lirikası, epik poeziyası, bədii nəsri, elmi məqalələri və irsinin tədqiq tarixini elmi təhlilə cəlb etməklə çağdaş oxucularda bütöv təsəvvür yaratmağa çalışmışdır. Professor Z.Əsgərlinin bu əsərini uğurlu elmi addım kimi dəyərləndirən filologiya elmləri doktoru Alxan Bayramoğlunun fikrincə: "...tədqiqat əsərində bakıxanovşünaslığın əldə etdiyi uğurlardan yaradıcılıqla faydalanmaqla yanaşı, bir çox mübahisəli cəhətlərə də aydınlıq gətirilmiş, müəyyən qədər yarımçıq qalmış və ya kifayət qədər əsaslandırılmamış tezis və müddəaların mümkün qədər tamamlanmasına nail olunmuşdur" [1].

2014-cü ildə Zaman Əsgərlinin nəzəri biliklərini özündə ehtiva edən "Poetika – izahlı sözlüyü" nəşr edilmişdir. Kitaba verilən annotasiyada qeyd olunduğu kimi, hər bir ədəbiyyatşünasın istinad edə biləcəyi bu ensiklopedik lüğətdə şeir nəzəriyyəsinə, ədəbi növlərə və janrlara, bədii metodlara və üslublara, poetik təsvir və ifadə sisteminə, mətn anlayışına, sənətdə forma və məzmun, ənənə və novatorluq məsələlərinə dair terminlər müasir elmi-nəzəri baxış bucağından şərh olunmuşdur. Müəllifin bu kitabı ədəbiyyatşünas-alimlər, doktorantlar, ədəbiyyat müəllimləri, ali məktəblərin filologiya fakültəsinin tələbələri, eləcə də orta məktəb şagirdləri, abituriyentlər üçün son dərəcə yararlı və faydalı bir mənbədir.

Görkəmli alim Z.Əsgərli "Azərbaycan ədəbiyyatı tarixi" (6 cilddə: IV c., B., 2011), "Azərbaycan ədəbiyyatı tarixi. Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü" (10 cilddə: V c., B., 2021), "Azərbaycan ədəbiyyatı tarixi. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası" (10 cilddə: VI c., B., 2022) kitablarında icmal və oçerklər yazmış, "Cəlil Məmmədquluzadə" (B., 2008), "Qabdulla Tukay" (Kazan, 2016) kimi ensiklopediyaların əsas məqalə müəllifləri sırasında olmuşdur.

Həmçinin üççildlik "A.P.Çexov. Seçilmiş əsərləri" (B., 1987-1988), "Əziz Mirəhmədov. Biblioqrafiya" (B., 1999), "XIX əsr Azərbaycan şeiri antologiyası: Poeziya" (B., 2005), beşcildlik "Azərbaycan nəsri antologiyası" (B., 2006) və digər kitabların tərtibçisi, nəşrə hazırlayanı idi.

Z.Əsgərli həm də müxtəlif illərdə "Ədəbiyyat (10-cu sinif üçün dərslik)", "Ədəbiyyat – 10. Ümumtəhsil məktəbləri üçün dərs vəsaiti: Test tapşırıqları", "Ədəbiyyat müntəxəbatı (X sinif üçün dərs vəsaiti)", "Ədəbiyyat. Dərslik – müntəxabat", "Ədəbiyyat: Qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsait" kimi dərs vəsaitlərinin həmmüəlliflərindən biri, çoxsaylı monoqrafiya və tərtiblərin redaktoru, rəyçisi, bir çox kitablarda ön sözlərin müəllifi, müxtəlif nəşrlərin redaksiya heyətlərinin üzvü olmuşdur. Ümumilikdə professor Z.Əsgərli ədəbiyyatşünaslığın aktual problemlərini, ədəbi prosesi özündə əks etdirən 400-ə yaxın məqalə müəllifidir.

Milli ədəbiyyatşünaslıq məktəbinin görkəmli nümayəndələrindən F.Köçərli haqqında "Azərbaycan ədəbiyyatı tarixçiliyinin babası", "Böyük ziyalı – ədəbiyyatşünas", "Firidun bəy Köçərli", akademik H.Araslı haqqında "Yaradıcılıq üfüqləri", Ə.Sultanlı haqqında "Əli Sultanlının Azərbaycan ədəbiyyatşünaslığında mövqeyi", "Əli Sultanlı", akademik F.Qasımzadə haqqında "İlk görüşün təəssüratı", "Ustad Feyzulla Qasımzadə", "Feyzulla Qasımzadənin həyat və fəaliyyəti", M.C.Cəfərov haqqında "Tənqidçinin yubileyi", akademik M.Arif haqqında "Azərbaycan dramaturgiyasının kamil tədqiqatçısı", müxbir üzv Ə.Mirəhmədov haqqında "Əziz Mirəhmədov: Alim ömrü" monoqrafiyası, "Əziz Mirəhmədov. Biblioqrafiya"sı, alimin "Azərbaycan Molla Nəsrəddini" kitabı haqqında "Mirzə Cəlilə layiq", "Çoxsahəli elmi yaradıcılıq", lüğətçilik fəaliyyəti haqqında "Ensiklopedik lüğət", professor Q.Kazımovun eyni adlı kitabı haqqında "Müasir Azərbaycan dili. Sintaksis", "Həyatı və yaradıcılıq yolu haqqında" adlı məqalələri, K.Məmmədov haqqında "Xatirə-povest"i və s. alimin ustad və müəllimlərinə olan qədrşünaslığının, haqqa sadiqliyinin, ziyalı mədəniyyətinin təzahürüdür. Ustadları qarşısında məsuliyyət, cavabdehlik hissi, "Hörmətdən düşməkdən qorxu"su olub Zaman müəllimin iç dünyasında. Filologiya elmləri doktoru Əlizadə Əsgərli yazır: "Elmi üslubu təmiz idi, səliqəli idi. Mətn üzərində çox işləyirdi. Bir dəfə lap əvvəllər, dünyanın bir adi günündə yolla gedəndə dedim ki, təmiz elmi üslubun var... – Hə, bu üslub təsadüfi deyildi məndə. O gəncliyimin Məmməd Cəfər Cəfərovu, Yaşar Qarayevi, Mirzağa Quluzadəsi, Əziz Mirəhmədovu və onların hər birinin əhatəsi var idi. Onların müxtəlifliyi – fərdi ülgüsü ehtiyatlandırırdı məni. Təmiz yazmağa vadar olurdum. Başqa cür yazmaq mümkün deyildi. Ciddi məsuliyyət vardı o zaman. Hörmətdən düşməkdən qorxurdum, – deyə bildirmişdi" [3].

"Başqa cür yazmaq mümkün deyildi", "Hörmətdən düşməkdən qorxurdum", – deyən Zaman müəllim həyatının sonuna qədər ustadlarının yolunu ləyaqətlə, qürur hissi ilə davam etdirdi – eynilə filologiya elmləri doktoru, professor Q.Kazımovun Z.Əsgərli haqqında xatirələrində dediyi kimi: "Şərait, zaman nə qədər dəyişsə də, həyata, insana, elmə münasibət əvvəlki siqlətini nə qədər itirmiş olsa da, onlar – o böyük adamlar daim Zamanın gözlərinin önündə idi, bəlkə də hər bir addımında onları xatırlayır, çətin məqamda onlar necə edərdilər? – sualı ilə məsələləri həll edirdi" [8].

Z.Əsgərli elmi fəaliyyəti ilə yanaşı, müxtəlif illərdə orta ümumtəhsil və Azərbaycan Universitetinin Əli Bayramlı filialı, Müstəqil Azərbaycan Universiteti, Azərbaycan Müəllimlər İnstitutu, Bakı Qızlar Universiteti, Təfəkkür Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti kimi ali məktəblərdə müəllim və kafedra müdiri, "Vətənpərvər" və "Azərbaycan müəllimi" qəzetləri redaksiyalarında redaktor, şöbə müdiri, ədəbi işçi vəzifələrində çalışmışdır.

Elmi və pedaqoji fəaliyyətlə paralel Z.Əsgərli ara-sıra özünü bədii yaradıcılıqda da sınamışdır. Onun nəşr olunan "Sevgililər. Mənsur şeir" ("Gənc müəllim" qəz., 1971, 24 mart), "Gəraylı" ("Gənc müəllim" qəz., 1973, 5 aprel), "Gəraylı" (Zaman Əsgərli. Poetika: izahlı sözlük. B., 2014, s.80), "Şirin qan" ("Azərbaycan müəllimi" qəz., 1998, 26 fevral), "Münaqişə" ("Azərbaycan müəllimi" qəz., 2000, 14-20 dekabr), "Çərçinin naharı" ("Azərbaycan müəllimi" qəz., 2001, 8-14 mart) hekayələri və "Nağı dayı" (B., 1998) publisistik povesti buna bariz nümunədir.

Fəaliyyət dairəsi geniş olan Z.Əsgərli

M.F.Axundzadənin 200 illik yubileyinə həsr edilmiş tammetrajlı "Sübhün səfiri" (2012) adlı bədii və Fatma xanım Kəminə haqqında qısametrajlı "Kəminə" (2018) sənədli televiziya filmlərinin məsləhətçisi olmuşdur.

## Nəticə / *Conclusion*

Böyük ehtiram hissi ilə yaddaşlarda yaşayan professor Zaman Əsgərli Azərbaycan ədəbiyyatşünaslığı tarixində özünəməxsus yeri olan sanballı alimlərimizdəndir. Bu deyilənlər Z.Əsgərlinin həyat və yaradıcılığına məqalə çərçivəsində yığcam bir ekskursdur. Lakin onun zəngin elmi irsi daha əhatəli – monoqrafik tərzdə tədqiq edilməyə layiqdir.

## Ədəbiyyat / *References*


1. Bayramoğlu, A. Bakıxanovşünaslığı zənginləşdirən monoqrafiya // "Ədəbiyyat qəzeti", 2018, 15 sentyabr.
2. Əliyev, K. Yolun sonu // Ədəbiyyat qəzeti", 2018, 1 sentyabr.
3. Əsgərli, Ə. Ömrə elegiya // "Kaspi" qəz., 2018, 29 sentyabr – 1 oktyabr.
4. Əsgərli, Z. Bir neçə söz // Əsgərli Z. Seyid Əzim Şirvani. – Bakı: Elm, 2005.
5. Əsgərli, Z. Əziz Mirəhmədov: Alim ömrü. – Bakı: Elm, 2000.
6. Əsgərli, Z. Mirzə Şəfi Vazeh – 220 // "Azərbaycan" qəz., 2014, 8 iyun.
7. Həbibbəyli, İ. Yeni tipli ədəbiyyatşünaslıq məktəbinin yaradıcısı // Rekviyem (Toplayanı və redaktoru: Ə.Eldarova). – Bakı: Azərbaycan, 2003.
8. Kazımov, Q. Vəfasız dünya, vaxtsız ayrılıq // "Kredo" qəz., 2019, 4 aprel.
9. Nəbiyev, B. Xasiyyətnamə // Zaman Əsgərlinin AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun arxivində qorunan "Şəxsi işi".


## ИЗВЕСТНЫЙ УЧЕНЫЙ-ЛИТЕРАТУРОВЕД ЗАМАН АСКЕРЛИ


**Афаг Алиева**
Доктор философии по филологии
Институт рукописей имени Мухаммеда Физули НАНА. Азербайджан.
E-mail: afaq23@mail.ru



**Резюме.** В представленной статье рассказывается об основных моментах жизни и многогранном творчестве литературоведа, критика, публициста, члена Союза писателей Азербайджана, доктора филологических наук, профессора Замана Аскерли (1952-2018). В 1980 году профессор З.Аскерли защитил кандидатскую диссертацию на тему "Трагедия Наджаф бека Везирова "Горе Фахреддина" и её позиция в азербайджанской литературно-общественной мысли", а в 1992 году защитил докторскую диссертацию на тему "Поэтика азербайджанской трагедии". З.Аскерли является автором таких монографий как "Трагедия Наджаф бека Везирова "Горе Фахреддина" (1985), "Наджаф бек Везиров" (1998), "Азиз Мирахмедов: Жизнь учёного" (2000), "Трагедия "Горе Фахреддина" (2003), "Сеид Азим Ширвани" (2005), "Мирза Шафи Вазех" (2010), "Бакиханов-Гудси" (2015), "Мирза Фатали Ахундзаде" (2017), а также "Поэтика: толковый словарь", многочисленных учебников и методических пособий. Им написано до 400 статей по вопросам истории, теории и поэтики азербайджанской литературы XIX-XX веков. Жизнь и научная деятельность З.Аскерли, занимающего своеобразное место в азербайджанском литературоведении, освещены в той мере, в какой это может уместиться в рамки статьи.



**Ключевые слова:** литературовед, Заман Аскерли, научное творчество, учебные пособия